**İmamat Qüdrət qızı MƏMMƏDOVA**
Qərbi Kaspi Universiteti, Politologiya,
psixologiya və sosiologiya kafedrası, magistrant
E-mail: imamet.memmedova@mail.ru

# QADINLARDA ANALIĞIN SOSİAL-PSİXOLOJİ İDENTİKLİYİ

**Xülasə**

Təqdim olunan məqalədə ananın sosial-mədəni məkanda şəxsiyyətinin formalaşmasının psixoloji və sosialoji əsasını, qadının özünüdərk etməsi təşkil edir. Ananın sosial kimliyi yaşadığı analıq sosial rolunun təsiri ilə əvvəlkindən daha fərqli şəkildə ətrafdakı prosesləri dərk edir. Ananın sosial identikliyi bir növ fərqli aspektdə inkişaf edir. Beləliklə, qadının özünüdərkinin məzmununa, dolğunluğuna əsas təsir edən hamiləlik və qarşıdan gələn doğuş vəziyyəti hesab olunur. Buna əsaslanaraq analığı sosial bir hal kimi nəzərdən keçirmək ilə maraqlı nəticələr əldə etmək olar. Hamiləlik dövründə analıq hissinin formalaşması, qadının ana sferasının necə inkişaf dinamikasına sahib olmasından asılıdır. Belə ki, qadın üçün yeni baş verən proseslər onun üçün çox ciddi önəm kəsb edir. Ümumiyyətlə göstərilən vəziyyətin təhlili bizə qadının uşaq gözlədiyi andan mövcud halı qəbul edərək, yaşanan dəyişikliklərin təsiri ilə bunu sosial vəziyyət kimi nəzərdən keçirməyə, tədqiq etməyə imkan verir.

**Açar sözlər:** Analıq, hamiləlik, sosial kimlik, şəxsiyyət, doğuş, emosional bağlılıq, sosial rol.

## Giriş

Məlum olduğu kimi qadınların şəxsiyyətlərinin inkişafında, formalaşmasında analıq sosial rolunun çox böyük əhəmiyyəti var. Qadınların hamiləlik və doğuşdan sonra yaşadıqları proseslər onların həyatlarında dönüş nöqtəsi, kritik məqam hesab olunur. Bu zaman onlarda sadəcə fizioloji dəyişikliklər ilə yanaşı psixoloji, sosial, emosional və bir çox başqa şəxsi, unikal təsirlər qadınların şəxsi kimliyində özünəməxsus mövqedə yer tutur. Tədqiq olunan proseslərdə ümumilikdə həm hamiləlik, həm də doğuşdan sonrakı dövrlərə xüsusilə diqqət etmək lazımdır. Bu dövrlər bizə analığı daha yaxşı təhlil etmək, öyrənmək imkanı verir. Bu məsələ ilə bağlı tədqiqatçıların nöqtəyi-nəzərləri ilə tanış olmaq, analıq haqqında geniş məlumat əldə etmək imkanı verir.

## Əsas hissə

Analıq halının tədqiqatı xüsusilə son zamanlarda daha aktual məsələlərdən biri olmuşdur. R.V Ovçarovanın fikrinə görə, analıq qadında çox mühüm sosial-psixoloji təsirləri özündə birləşdirən sosial vəziyyətdir. Nəticədə qadının sosial identikliyinin inkişafında çox mühüm yer tutur. Bir çox elmlər tarix, mədəniyyətşünaslıq, tibb, fiziologiya, psixologiya, biologiya, sosiologiya, pedaqogika və digərləri analıq problemini tədqiq etmiş, bu mövzu ilə bağlı hər bir elm öz məqsəd, vəzifələrinə uyğun olaraq yeni məlumatlar əldə etmişlər. Bu məsələ ilə bağlı tədqiqatçıların aşağıdakı fikirlərini qeyd edə bilərik. Bu fikirlər bizə daha yaxşı məsələni tədqiq etməyə, öyrənməyə imkan verir.

G.G Filippovanın fikrinə görə analıq qadının şəxsiyyətinin bir hissəsi və bütün sosial, psixoloji dəyərləri, motivləri, emosional hisləri özündə birləşdirən vəziyyətdir [113]. Qadının hamiləlik və doğuşdan sonrakı vəziyyətinin tədqiqi zamanı onun analığa uyğunlaşmasının müvəffəqiyyəti, uşaqla olan bağlığın qurulması və uşağın inkişafında lazımi şəraitin təmin edilməsi kimi müxtəlif amillər xüsusilə nəzərə alınmalıdır. Əsərində G.G.Filippova iddia edir ki, hamiləlik təcrübəsi qadının bir növ analığa hazırlıq mərhələsidir. Qadın bu təcrübə növü altında analığın qadının şəxsi sferası kimi təzahürünün mühüm xüsusiyyətləri analığa hazırlıq tərzi ilə həyata keçirilən hamiləlik təcrübəsi növüdür. Öz növbəsində, hamiləlik təcrübəsi növü altında həmin andan etibarən fiziki və emosional dəyişiklər ilə hamiləlik təcrübəsini onun siptomlarını, əhval-ruhiyyəsini hiss edərək analığa bir növ özünü hazırlayır. G.G.Filippova hamiləliyin 6 növünü qeyd edir (adekvat, narahat, eyforiya, məhəl qoymamaq, ambivalent və rədd etmək)[114].

Son illərdə ana olmağa hazırlığın tədqiqi daha çox maraq yaratdığı üçün müxtəlif aspektlərdən öyrənilmişdir. Ana olmağa hazır olmaq, uşağın inkişafı üçün lazım olan şəraiti təmin etməyə əsaslanmalıdır [119]. Ana olmağa psixoloji hazırlığın əsas komponentləri olaraq, qadının öz uşaqlıq dövründə əldə etdiyi kommunikativ xüsusiyyətlər, hamiləlik zamanı yaşadığı təcrübələr, eyni zamanda doğmamış uşağa olan münasibəti, şəxsi xüsusiyyətlərinə əsaslanan körpəni böyütmə, ona baxma strategiyasını aid edə bilərik. [75].

E.V.Matveevanın fikrinə görə də ana olmaq üçün psixoloji hazırlıq çox vacibdir. Bunun üçün üç hazırlıq bloku özündə birləşdirən ehtiyac-motivasiya bloku, koqnitiv-əməliyyat bloku, analığa sosial və şəxsi hazırlıq bloku ilə müəyyən etmək olar. Ehtiyac-motivasiya bloku analıq ehtiyacını nəzərdə tutur. Analıq qadın üçün mürəkkəb bir ehtiyacdır. Bu zaman yaranan vəziyyət sadəcə uşaq sahibi olmaq istəyi ilə kifayətlənmir, analar uşaqla olan qarşılıqlı emosional bağlılığı yaşamaq istəyirlər. Müxtəlif vəziyyətlər hər bir qadın üçün hamiləlikdə tamamilə fərqli, fərdi, təkrarolunmaz, unikal şərait yaradır. E.V.Matveeva nöqteyi-nəzərində qadının peşəkarlıqla ailə rollarını ahəngdar şəkildə birləşdirə bilməsi, əsasən, ailə həyatına və ana olmağa praktiki hazırlığı ilə izah olunur. E.V.Matveevanın fikrincə, ana davranışının əsas, vacib nöqtəsi ana olmağa psixoloji hazırlığın dərəcəsidir.

Öz növbəsində E.V.Miloserdova ana olmağa psixoloji hazırlığı müəyyən etməyə imkan verən iki mühüm amili xüsusilə qeyd edir. Birincisi, hamiləliyə olan münasibətdir. Hamiləlik şüur səviyyəsində sevinclə qəbul edilir və bu dövr istər psixoloji, istərsə də fizioloji səviyyədə sakit gedişatda davam edir. İkinci amil isə qadının doğuş zamanı yaranan davranışıdır. Yaşanan vəziyyət hər bir qadın üçün unikal, müxtəlif, özünəməxsus şəkildə dərk edildiyi üçün doğuş zamanı yaranan davranışlara da fərdi yanaşaraq təhlil etmək lazımdır.

R.V.Ovçarova öz əsərlərində qeyd edir ki, ananın psixoloji hazırlığının əsas amili uşağa olan fərdi, subyektiv yanaşmadır. O ananın davranışı ilə körpənin əqli inkişafı üçün əlverişli şərait yaratmaq mümkün olduğunu qeyd edir. Xüsusilə ana ilə uşaq arasındakı ünsiyyət səviyyəsi böyük rol oynayır. Ananın körpəyə olan münasibəti ilə yanaşı onun özündə yaranan bəzi sosial, emosional, psixoloji, fizioloji dəyişikliklərin də psixoloji hazırlığa böyük təsiri var.

Tədqiqatçılar müəyyən etmişlər ki, qadın analıq mərhələsinin xüsusilə ilk hamiləlik dövründə öz şəxsi inkişaflarında böhran yaşayırlar. Hamiləliyi emosional böhran, stress, dönüş nöqtəsi kimi qəbul edirlər. Ana olmağa hazırlaşan qadınların fikrincə hamiləlik, xüsusilə birincisi zamanı sosial kimliklərinin axtarışında böhran nöqtəsidir [45].

G.G. Filippova hamiləliyi qadının kəskin, stresli, keçid dövrü kimi qeyd edir. Ona görə bu dövr qadının sosial identikliyinin inkişafında kritik məqam olduğu üçün şəxsiyyətə təsiri danılmaz olaraq qalır.

Qadının hamiləlik və doğuş mərhələlərində onun fizioloji vəziyyəti ilə yanaşı onun psixologiyasında da ciddi dəyişikliklər baş verir. Ananın uşağa münasibəti ilə əlaqədar olaraq onun şəxsi dəyərlərində müxtəlif dəyişikliklər baş verir. Bu dəyişikliklərə həm doğuşdan əvvəl, həm doğuş zamanı, həm də doğuşdan sonra rast gəlmək mümkündür. Beləliklə, analığı bir növ inkişaf böhranı kimi nəzərə alsaq, qadının xüsusən ilk hamiləliyi və ilk doğuşu zamanı anada böyük dəyişikliklər baş verir. Böhran adi yolunda gedən hadisə və proseslərin kənara çıxmasıdır. Bu zaman insanın ətraf aləmlə, insanlarla və özü ilə münasibətlər sistemində dəyişikliklər, keyfiyyət transformasiyası müşayiət olunur [90].

Bəzi tədqiqatçılar Bergum V., Kopyl O.A., Bazhenova O.V., Baz L.L, analığı qadının şəxsi inkişafı üçün çox fərqli bir fürsət kimi qəbul edirlər. Tədqiqatçıların fikrincə, hamiləlik dövründə qadının "fiziki mənlik"də olan dəyişikliklər, insanın başqa bir varlıqla birgə yaşaması, ona sahib olmasını hiss etməsi ananın sosial kimliyinə də ciddi şəkildə öz təsirini göstərir. Hamiləlik dövrü qadının şəxsiyyətindəki ən dərin xüsusiyyətlərini, gizli şəxsi keyfiyyətlərini aşkar etməyə imkan verir. Qadının bir növ özünükəşf etməsinə kömək edir. Bu dövrdə uşaqla yaranan bağlılıq qadının təxəyyülünə, davranışına, təfəkkürünə təsir göstərməsi nəticəsində ananın dünyaya fərqli yanaşma ilə baxmasına səbəb olur. Hamiləliyin sona çatması isə qadının

həyatında bir növ kritik məqamdır. Uşağın doğulması, ananın ağrılı bir prosesin ardından özü ilə birgə yaşayan canlıdan ayrılması və yenidən təkliyə keçidi qadın üçün çox ciddi, kritik bir prosesdir. O.A.Kopyl, O.V.Bazhenova, L.L.Baz anada xüsusi bir psixoloji neoplazma kompleksinin olduğunu tədqiq etmişlər, bu da körpənin təhlükəsizlik, xarici dünyaya maraq və ona göstərilən məhəbbət, sevgi, şəfqət, qayğı kimi vacib psixoloji ehtiyaclarını ödəyən ananın xüsusi vəziyyəti hesab olunur. Bu ehtiyacların ödənilməməsi isə uşağın psixi sağlamlığı üçün təhlükə kimi qəbul edilir.

Tədqiqatçılar ana olmağın qadına verdiyi təsirləri müəyyən etmək üçün, ana olmağa hazırlığın motivasiyasına, davranış aspektlərinə, bununla yanaşı hamiləlik, doğuşdan sonrakı ev vəziyyəti ilə ananın şüurunda, özünüdərkində, sosial kimliyində nə kimi dəyişikliklərin olacağını tədqiq etmişlər. Araşdırmanın nəticəsinə görə tədqiqatçılar ana olacaq şəxslərdə motivasiya sisteminin yenidən qurulması, şəxsi xüsusiyyətlərdə yaranacaq dəyişiklikləri daha sağlam aspektdə formalaşmağa kömək edir. Hamiləlik zamanı yaranan motivasiyadakı dəyişikliklər, motivlərin mübarizəsi həmçinin, sonradan formalaşmış dəyərlər, təlimatlar sistemi qadınların psixoloji vəziyyətinə ciddi təsir göstərir. Bu dövrdə qadının şüur, özünüdərk sferalarında əvvəlcədə mövcud olan fikir, yanaşmalarda dəyişikliklər yaranmağa başlayır [61].

E.A.Teterleva [106] öz tədqiqatına əsasən iddia edir ki, analıq qadının hamiləlik dövründə özünüdərkinin, özünü kəşf etmənin unikal vəziyyəti kimi, valideyn mövqeyindən özünün uşaqlıq təcrübələrini yenidən düşünmə mərhələsi kimi önəmli bir dönəm başlayır. Valideyn obrazı qadına yeni obraz kimi inteqrasiya olunaraq, onun şəxsi inkişafında müəyyən qədər ciddi dəyişikliklər ilə özünü göstərir. Digər tərəfdən təkcə əvvəlki təcrübələrin təsiri ilə deyil, həmçinin faktiki həyat vəziyyətinin qadına də böyük təsiri var. Qadının şəxsi xüsusiyyətlərindən asılı olaraq, ana rolundan məmnunluq fərqli səviyyələrdə özünü göstərir [100].

Qadın həyatının ən önəmli mərhələlərindən biri onun ana olmasıdır. Vasilenko hesab edir ki, insanlar öz həyatlarında daim maraqlı, emosional, vacib, rəngarəng, həyati əhəmiyyəti olan müxtəlif vəziyyətlər ilə qarşılaşırlar [34]. Bu vəziyyətlərdən bəziləri insanın həyatında dönüş nöqtələri hesab edilir. Xüsuilə, qadınlar üçün ana olmaq onların həyatı və sosial, psixoloji vəziyyətləri üçün dönüş nöqtəsidir.

Qadının həyat yolunda analıq hissini mənimsənilməsi, hamiləlik və doğuş proseslərinin baş verməsi ciddi məna və dəyər daşıyır. Buna görə də, hamiləlik və uşağın doğulması, xüsusilə ilk uşaqda ana üçün önəmli bir həyat hadisəsi kimi baş verir. Hamiləlik təcrübəsi dəyər proseslərinin intensivləşdirilməsini yeni bir mənanın analıq və yeni doğulan uşağın dəyərinin formalaşmasını əhatə edir. Qadının həyatında bu önəmli hadisənin yaşanması ana ilə uşaq arasında əlaqəni, bağlığı formalaşdırır və ən əsası şəxsiyyətin formalaşmasında özünəməxsus mühüm rol oynayır. Hamiləlik dövrü qadında sosial rolları və onların dinamikasını, eləcə də qadının bütün həyat təcrübəsini yenidən qurur [32]. Analıq insanın həyatının semantik yönümlərində dəyişiklik dövrü kimi qəbul edilir [34].

Hamiləlik dövrü, doğuş prosesi, uşaqla ana arasında bağlılıq qadın üçün emosional və şəxsi əhəmiyyəti var. Nəticədə, analıq emosional rəngli bir proses kimi çıxış edir. Hamiləlik və ümumiyyətlə analıq vəziyyəti qadından öz həyatını, eləcə də həyat dəyərlərini və həyata baxışlarını yenidən düşünməyə vadar edir. Qadında bütün prosesləri yaşaması ilə olan təsirlər müxtəlif sosial və psixoloji dəyişikliklər yaratması nəticəsində anada yeni sosial kimlik formalaşır. Bu proseslər ardıcıllıqla müxtəlif aspektlərdən təsir göstərərək qadını analıq vəziyyətinə hazırlayır. Analıq hissi və uşaqla olan emosional bağlılıq hamiləlik vəziyyətində başlayır. Qadının hamiləliyinə onun ailəsi, sosial vəziyyəti, mövcud olan psixoloji vəziyyəti, sağlamlığı, şəxsi keyfiyyətləri və uşağın inkişaf xüsusiyyətləri əsas təsir göstərən amillər kimi hesab olunur [114]. Yeni sosial vəziyyət olan hamiləlik, doğuş ümumilikdə analıq qəbul edilən, mənimsənilən sosial rollardan biridir. Bu rol ananın sosial kimliyində çox mühüm əhəmiyyət daşıyır. Qadın ana olmaqla, ictimai, sosial münasibətlər sistemində yeni mövqe əldə edir [83]. Beləliklə, qadının sosal identikliyinin formalaşmasında, ananın sosial rolunun mənimsənilməsi, qəbul edilməsi xüsusilə ön plana çıxır. Qadının yeni sosial rolu onun sosial

identikliyinə çoxlu sayda müxtəlif amillər ilə təsir göstərir. Bunlara daxildir: qadının şəxsi xüsusiyyətləri, hamiləlik zamanı və doğuşdan sonra yaranan emosional, psixoloji, sosial vəziyyətdə dəyişikliklər, özünüdərk zamanı formalaşan fərqli yanaşmalar.

M.A.Neçayeva, L.F.Rıbalova, L.V.Ştraxovaya görə ana şəxsiyyətinin inkişaf etmə mərhələləri üç növə bölünür: hamiləlik, doğuş, analıq. Tədqiqatçılara görə qadınlar da ana rolunun formalaşması qadının şəxsiyyətinin inkişafının bir parçasıdır və bütün həyat boyu davam edir.

M.Argyle analığı sosial vəziyyət kimi qəbul edir və onu iki mərhələyə hamiləlik və uşağın doğulmasından sonrakı mərhələ olaraq təsnifləşdirir. Bu iki mərhələdə baş verən, yaşanan hər bir proses, təsir ananın sosial, psixoloji, emosional vəziyyəti haqqında geniş məlumat verir. Şəxsiyyətin formalaşmasında önəmli rol oynayır.

Bütün yuxarıda tədqiq olunan, qeyd edilənləri yekunlaşdırsaq, qadının şəxsi sferası kimi analığın psixoloji xüsusiyyətləri onun şəxsiyyətinin inkişafında çox mühüm mövqəyə malikdir. Onun sosial kimliyində yaranan bu vəziyyət təbii ki, təsirsiz ötüşmür. Sosial identiklik anlayışını tədqiq edən zaman qadınlarda analıq, hamiləlik zamanı yaranan prosesləri xüsusilə təhlil edərək öyrənmək lazımdır. Belə ki, qadının həm hamiləlik dövründə, həm də uşaq doğulduqdan sonra sosial şəxsiyyətinin formalaşmasının xüsusiyyətləri, onun analığı necə qəbul etməsindən və ona olan yanaşmasından asılı olaraq dəyişir. Hamiləlik dövründə şəxsiyyətdəki bütün sosial, psixoloji, emosional dəyişikliklər qadının analığa bir növ hazırlığı kimi qiymətləndirilir [1].

**Nəticə**

Beləliklə, analıq vəziyyəti həm sosial parametrlər, həm də şəxsi, subyektiv parametrlər baxımından nəzərdən keçirilərək tədqiq olunur. Sosial vəziyyət anlayışı xüsusilə sosial kimlik ilə sıx qarşılıqlı əlaqədədir. Hamiləlik zamanı və doğuşdan sonra qadının sosial şəxsiyyətində bir sıra dəyişikliklər olur. Belə ki, həmin sosial vəziyyət həm hamiləlik dövründə, həm də uşaq doğulduqdan sonra qadının biliyinə, ətraf aləmə olan yanaşmasına, emosional, psixoloji, sosial halına və dəyərlərinə özünəməxsus təsir göstərəcəkdir. Nəticədə, məqalədə qadının sosial kimliyinin xüsusiyyətlərini nəzərdən keçirdiyimiz zaman onun qazandığı yeni sosial rolların nə dərəcədə təsir göstərdiyini öyrənirik. Qadının sosial kimliyi strukturunda biz dörd komponenti qeyd edirik: sosial rol, dəyər-semantik, emosional və koqnitiv. Analığı tədqiq edən zaman bütün bu kompenentlər ilə birgə qadının fərdi xüsusiyyətlərinə də diqqət yetirmək, nəzərə almaq çox vacibdir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Ə.S.Bayramov, Ə.Ə.Əlizadə. Psixologiya. Bakı, 2009

2. Брутман, В.И. Формирование привязанности матери к ребенку в период беременности/ В.И. Брутман, М.С. Радионова // Вопр. Психологии. - 1999.

3. Василенко, Т.Д., Земзюлина, И.Н. Принятие роли матери. Клиникопсихологический анализ / Т.Д. Василенко, И.Н. Земзюлина / Форум, 2011

4. Завгородняя, И.В. Психологический кризис беременности монография / И.В. Завгородняя// Воронеж: Издательско-полиграфический центр «Научная книга», 2013.

5. Копыл, О.А. Готовность к материнству: выделение факторов, условий психологического риска для будущего развития ребенка / О.А. Копыл, Л.Л. Баз, О.В. Баженова// Синапс. – 1993.

6. Мещерякова, СЮ. Психологическая готовность к материнству / СЮ. Мещерякова // Вопросы психологии. -2000.

7. Подобина, О.Б. К вопросу об измерении родительских установок / О.Б. Подобина // Психология и практика: сборник научных трудов / Отв. редактор В.А. Соловьёва. - Кострома: КГУ им. Н.А. Некрасова, 2003.

8. Рамих, Н. Материнство как социокультурный феномен / Н. Рамих - М, 1996.

9. Северный, А.А. Психологические аспекты беременности / А.А. Северный, Т.А. Баландина, К.В. Солоед // Социальная и клиническая психиатрия. 1995.

10. Тетерлева, Е.А. Смысловое переживание материнства как новообразование самосознания женщины: диссертация кандидата психологических наук: 19.00.01/ Тетерлева Екатерина Александровна - Москва, 2006.

11. Филиппова, Г.Г. Материалы конференции по проблемам материнства / Г.Г. Филиппова // Вопросы психологии. № 3, 1997.

12. Филиппова, Г.Г. Материнство и основные аспекты его исследования в психологии/ Г.Г. Филиппова// Вопр. Психологии. - 2001.

13. Филиппова, Г.Г. Хрестоматия по перинатальной психологии: Психология беременности, родов и послеродового периода / Г.Г. Филиппова; сост. А.Н. Васина. - М.: Изд-во У РАО, 2005.

**Имамат Гудрат гызы МАММАДОВА**
Западно-Каспийский университет,
кафедра педагогики, психологии и социологии, магистр
E-mail: imamet.memmedova@mail.ru

# СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКАЯ ИДЕНТИЧНОСТЬ МАТЕРИНСТВА У ЖЕНЩИН

**Резюме**

В представленной статье психолого-социологической основой формирования личности матери в социокультурном пространстве является самосознание женщины. Социальная идентичность матери иначе, чем раньше, воспринимает окружающие ее процессы под влиянием материнской социальной роли, которую она проживает. Социальная идентичность матери развивается в другом аспекте. Таким образом, основным влиянием на содержание и полноту самосознания женщины считается состояние беременности и предстоящие роды. Исходя из этого, интересные результаты можно получить, рассматривая материнство как социальное состояние. Формирование чувства материнства при беременности зависит от динамики развития материнской сферы женщины. Значит, новые процессы для женщины очень важны для нее. Анализ показанной ситуации в целом позволяет рассмотреть и изучить существующую ситуацию с момента ожидания женщиной ребенка, рассматривая ее как социальную ситуацию с влиянием пережитых изменений.

**Ключевые слова:** материнство, беременность, социальная идентичность, идентичность, рождение, эмоциональная привязанность, социальная роль.

**İmamat Gudret MAMMADOVA**
Western Caspian University,
Department of Politology, Psychology and Sociology, Master
E-mail: imamet.memmedova@mail.ru

## SOCIO-PSYCHOLOGICAL IDENTITY OF MATERNITY IN WOMEN

**Abstract**

In the presented article, the psychological and sociological basis of the formation of the mother's personality in the socio-cultural space is the woman's self-awareness. The mother's social identity perceives the processes around her in a different way than before, under the influence of the maternal social role she lives. The mother's social identity develops in a different aspect. Thus, the main influence on the content and fullness of a woman's self-awareness is considered to be the state of pregnancy and the upcoming birth. Based on this, interesting results can be obtained by considering motherhood as a social condition. The formation of the feeling of motherhood during pregnancy depends on the development dynamics of the woman's maternal sphere. So, new processes for a woman are very important for her. The analysis of the situation shown in general allows us to consider and study the existing situation from the moment a woman is expecting a child, considering it as a social situation with the effect of the changes experienced.

**Keywords:** Motherhood, pregnancy, social identity, identity, birth, emotional attachment, social role.

**Daxil olub:** 19.09.2022